# A.Çapıginin “Stepan Razin” romanında tarixi gerçəkliyin təsviri

**Pərvanə Ərşad qızı Mustafayeva**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
**E-mail:** muatafayeva_1972@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. B.B. Əhmədov,
filol.ü.e.d., prof. N. Tağısoy

**Açar sözlər:** tarixi roman, gerçəklik, xalq hərəkatı, yazıçı, obrazlar, təsvir, inqilab
**Ключевые слова:** исторический роман, реальность, движение людей, писатель, образы, описание, революция
**Key words:** historical novel, reality, people's movement, writer, images, description, revolution

XX əsrin 20-ci illəri rus tarixi romanının inkişafı üçün yeni bir mərhələğ oldu. Bu dövrədək cəmi bir neçə tarixi romanı olan rus ədəbiyyatında birdən-birə ondan çox tarixi roman yazıldı. Bunun müəyyən səbəbləri vardı. Bu səbəblərdən biri, əgər dünya ədəbiyyatında tarixə müraciətin intensiv xarakter almasından irəli gəlirdisə, digər bir səbəbi sovet hakimiyyətinin ilk illərində müasir həyat hadisələrinin təsvir çətinliyini çəkən yazıçıların bundan boyun qaçırması üçün tarixə müraciət etməsi olurdu. Başqa bir səbəb isə, ümumiyyətlə tarixi roman janrının yalnız rus ədəbiyyatında deyil, həm də dünya ədəbiyyatında geniş yayılması olmuşdu. Lakin tarixə müraciətin də öz çətinlikləri vardı. Çünki sosrealizm yazıçıdan tarixə müraciət zamanı müasirlik mövqeyindən, yəni hadisə və şəxsiyyətlərə inqilabi mövqedən yanaşmanı tələb edirdi. Bu isə yazıçının təsvir imkanlarını məhdudlaşdırmağa xidmət edirdi. Bu yanaşma tarixi aspektə özünün ideoloji diqtəsini etmiş olurdu. Rus tarixi roman tədqiqatçısı Y.Andreyev bunu nəzərdə tutaraq yazırdı: "Ötən əsrin 20-ci illərinin sovet gerçəkliyinin təsiri həmin dövrdə yazılmış tarixi romanlarda hiss olunur. Qeyd olunmalıdır ki, tarixə və onun qanunauyğunluqlarına yanaşma baxımından bu təsir həm yeni yazılan, həm də inqilaba qədərki dövrdə yazılmış əsərlərdə də özünü biruzə verir. 20-ci illərin bütün ədəbi janrları üçün ziyalıların inqilabda yeri və yolları üzərində düşüncələrə qapılmaq xarakterik idi və elə bu səbəbdən də həmin problem bir çox tarixi romanların mərkəzində dururdu” (1, s. 9). Lakin bu baryerlər rus yazıçılarının tarixi romana müraciətinin qarşısını ala bilmirdi. K.Trenovanın “Poqaçovçuluq”, S.Zlobinanın “Salavat Yulayev”, M.Mariçin “Quru küləklər”, O.Forşun “Daşa bürünmüşlər”, “Qaynar sex”, “Vəzir Muxtarın ölümü” və s. romanlarında tarixi gerçəkliyin təsviri məsələləri əsas yer tuturdu. Bununla yanaşı, bu əsərlərdə hadisələrə münasibətdə müasirlik tendensiyasına da üstünlük verilirdi. Bu dövrdə yazılan tarixi əsərlərdən biri də A.P.Çapıginin “Stepan Razin” romanı idi. 1926-cı ildə A.P.Çapıginin “Stepan Razin” üç cildlik tarixi romanı nəşr olundu. Bu əsər məzmununa, tarixi hadisələrə yanaşma tendensiyasının özünəməxsusluğuna və həcminə görə 20-ci illərdə tarixi roman janrında yazılmış ən əhəmiyyətli əsərlərdən biri hesab olunurdu.

Aleksey Pavloviç Çapıgin (1870-1937) kəndli ailəsində anadan olmuş, rəssam-dekorator məktəbində oxumuşdur. Peterburqun müxtəlif emalatxanalarında işləmiş, yağlı boya üzrə yüksək ixtisaslı mütəxəssis kimi tanınmışdır. Hətta Bolqarıstanda bir məbədi bərpa etmək üçün dəvət almış və oraya getmişdir. Vətənə dönəndə isə inqilab baş vermişdi. A.Çapıgin bir

yazıçı kimi 1903-cü ildən hekayələr yazmağa və dərc olunmağa başlamışdır. Lakin ona yaradıcılıqda ən böyük şöhrəti "Stepan Razin" (1926) və "Gəzəyən adamlar" (1935) əsərləri gətirmişdir. İlk romanı "Stepan Razin" həm öz yaradıcılığında, həm də rus nəsrində yazılan ilk tarixi romanlardan biridir. Yazıçı roman üzərində cəmi iki il yarım işləmişdir. Bu müddət tarixi roman üçün o qədər də çox deyil. A.P.Çapıginin tarixi romana müraciəti, əslində bir qədər əvvəl başlamışdır. Onu bu mövzuya yönəldən proletar ədəbiyyatının görkəmli simalarından biri M.Qorki olmuşdur. Roman yazıldıqdan sonra isə əsəri təriflәmiş və onun müəllifini "rus ədəbiyyatının görkəmli nümayəndələrindən biri", "orijinal sənətkar" kimi dəyərləndirmişdir. Doğrudur, yazıçılardan D.Qriqoroviç və V.Korolenko, tənqidçi-publisist İ.Mixaylovski, şair V.Xlebnikovun da bir vaxtlar onun ədəbi taleyində müəyyən rolu olmuşdur. Lakin onların rolu Qorkinin Çapıginə göstərdiyi diqqət və qayğı ilə, bəzən isə, yazıçının həyatına və yaradıcılığına sərt müdaxilələrlə müqayisə edilə bilməz. Görünür, buna görə də yazıçı özü M.Qorkinin həyatındakı roluna yüksək qiymət vermiş və daim onu xatırlamışdır. Tədqiqatçı S.Petrova görə, Çapıgin Qorki haqqında həmişə məhəbbət və hörmətlə danışmış, onu özünün böyük dostu və müəllimi adlandırmışdı. S.Petrov bu barədə yazır: "Qorki böyük maraqla yazıçının 1918-ci ildə Vladimir Monamax dövründən yazdığı "Qorislaviç" tarixi dramını izləyirdi. Yaradıcılığında tarixi mövzuya müraciətini Çapıgin özü də vacib amillərdən biri hesab edirdi. "Qorki qarşımda məqsəd qoydu, məni ədəbiyyatın yeni yoluna istiqamətləndirdi və mən "Stepan Razin" romanını yazarkən burada öz yolumu tapdım", — deyə Çapıgin qeyd edirdi" (2, s. 30).

Əgər M.Qorki onu tarixi mövzuya istiqamətləndirmişdirsə, A.Tolstoy konkret olaraq onu bu mövzuda yazmağa təşviq etmişdir. Beləliklə, proletar ədəbiyyatının tüğyan etdiyi bir zamanda hələ tarixdəki yeri o qədər də məlum olmayan Stepan Razin haqqında ilk tarixi roman yazılmışdır. Yazıçı Stepan Razinin dövrünü yaxşı öyrənmiş, 1667-1671-ci illərdə baş verən xalq hərəkatının xarakterini verməyə nail olmuşdur. Əsəri yazmaqda tarixçi alim S.M.Solovyovun "Qədim Rus tarixi" adlı tədqiqat əsəri də kömək olmuşdur. Yazıçı Stepan Razinin başçılığı altında baş verən xalq hərəkatının mahiyyətini yaxşı dərk etmək və bunu oxucuya çatdırmaq üçün tarixi faktlarla kifayətlənməmiş, müxtəlif xatirə və arxiv materiallarından istifadə etməklə hadisələrə münasibətini bildirməyə çalışmışdır. Yazıçı bu əsəri ilə demək istəyir ki, Razini xalq yetişdirib, onun gücü xalqla əlaqəsində, onlarla bir yerdə olmasındadır. Bu ideya roman boyu izlənilir. V.Qoqolun "Taras Bulba" romanından sonra ilk dəfə idi ki, xalq kütlələrinin hərəkatı və onun başçısına bu cür iri həcmli əsər həsr olunurdu. Məsələ xalq kütlələrinin önə çıxmasında deyil. Məlumdur ki, bu zamana qədər rus tarixi romanlarında təsvirçiliyə daha çox yer verilirdi. Yaxud hər hansı bir qəhrəmanın məlum olan həyatının ayrı-ayrı epizodları bədii düşüncəyə gətirilirdi. A.Çapıginin romanında isə bu hadisələrə xalq taleyi rakursundan baxıldığından mövcud tendensiya dağılır. Doğrudur, bu cür yanaşma müəyyən mənada dövrün ideologiyası ilə də səsləşirdi. Belə ki, son inqilabın əsasında da xalq kütlələri, yaxud fəhlə-kəndli hərəkatı dayanırdı. Lakin bu üst-üstə düşmə təsadüfi xarakter də daşıya bilərdi. Buna görə də "Stepan Razin" romanını xalq və xalq qəhrəmanları ilə bağlı əsər də adlandırırlar. Yazıçı özü bu barədə sonralar yazırdı: "Mənim bu romanda əsas ideya kəndli inqilabını və onun məşhur rəhbərinin obrazını yaratmaq olmuşdur" (3).

"Stepan Razin" romanı bioqrafik roman deyil, yəni əsər tarixdə xalq hərəkatının rəhbəri olmuş Razinin həyatı və fəaliyyətini əks etdirməyə həsr olunmamışdır. Heç yazıçının qarşısında da bu məqsəd durmurdu. Yazıçı tamamilə doğru yol tutmuş, romanın süjet xəttinə bioqrafiyanı deyil, xalq hərəkatını və onun taleyi problemini qoymuşdur. Əgər roman yalnız Stepan Razinin həyatına həsr olunmuş olsaydı, bu qədər ictimai məzmun daşımazdı. A.Çapıgin Ste-

pan Razini sadəcə xalq hərəkatı kontekstində təsvir etmiş və onun böyüklüyünü, qəhrəmanlarını da burada axtarmışdır. Stepan Razin obrazının özündə də xalq taleyi və xarakterinin ən qabarıq cizgiləri öz əksini tapmışdır. Əsərdəki digər obrazlar da bu xarakteri tamamlamağa xidmət edir. Rus pəhləvanı Pyotr Makeeyev obrazı bütün gücü ilə xalq xarakterini əks etdirir. Bu obraz bılina üslubunda işlənilmişdir. Bundan başqa digər obrazlarda da xalqın ayrı-ayrı təbəqələrinin xarakterik xüsusiyyətləri göstərilir. Serebryakov və Rudakov obrazlarında kazakların ağıl və təcrübəsi, Sergey Krıvoy obrazında qəhrəmanlıq və sədaqətli dostluq, Fyodor Suknin obrazında isə hiyləgərlik həyati gerçəkliyə uyğun olaraq verilir. Müəllif gənc, cəsur, gözəl Lazunki obrazı ilə atamanların sevimlisini təsvir etməyə çalışmışdır. Maraqlıdır ki, müəllif həm Mokeyevi, həm Lazunkini hərəkatın gedişində Stepan Razinin ən yaxın köməkçiləri kimi qələmə vermişdir. Deməli ki, yazıçı yalnız Stepan Razini deyil, xalqın içindən çıxan digər nümayəndələri də xalqa yaxın adam kimi təsvir edir. Görünür ki, Razinin qəhrəmanlığı və sədaqəti bu obrazlarla xalq hərəkatının məzmununa bir zənginlik gətirmiş olur.

Romanın əvvəlində yazıçı Çapıgin Stepan Razin üsyanına hazırlıq üçün müəyyən işarələr verir. Yazıçı üsyanı birdən-birə deyil, onun hazırlıq mərhələsini təsvir etməklə tədricən oxucunu hadisənin içinə salır. O, xalq hərəkatını doğuran səbəblərə, amillərə də nəzər salır, Morozov, Pleşev kimi zadəganların şəxsində qarşıdan gələn təhlükənin yetişdiyini göstərmək istəyir.

A.Çapıgin Stepan Razin obrazını da inkişafda təsvir etmişdir; yəni hərəkat rəhbəri çox doğru olaraq birdən-birə hərəkatın rəhbəri kimi göstərilmir. Romanın əvvəllərində Razin bir ataman olaraq təsvir edilir. Əvvəllər o, insanlar arasında sosial bərabərliyi hiss etmir, bəlkə də təcrübəsizlikdən bu ayrılığı görə, dərk edə bilmirdi. Şəhərdəki camaat arasındakı ziddiyyətləri, həyat şəraitindəki müxtəliflikləri görmürdü. Onun ağlına da gəlmirdi ki, şəhərdə kasıb camaat çoxdur və onlar hakim sinfi görəsi gözü yoxdur. Bununla yazıçı obrazın keçdiyi inkişaf yolunu göstərmək istəmişdir. Lakin hadisələrin gedişi zamanı Razin cəmiyyət və insanlar haqqında çox şey öyrənir, böyük təcrübə toplayır. O, getdikcə güclənir, hərəkat zamanı ağıl və hiylə işlədir. Bütün bunlar onun mübarizəsində uğur gətirən əlamətlərdən olur. Qəhrəmanın xarakteri Voloqjeninlə söhbətdə bütün reallığı ilə üzə çıxır: “Глянь, сколь огней кругом и силы народов разных, там в долине да на сугорах и меж щелопы… много силы, старик, знаю и… Но вот что, ежели бы ты ехал в упряжи, да конь зачал бить задом, да понес бы тебя, и ты слез и загнал бы коня в болото ли, альба в стену, – кнутьем бить зачал, да?

– Да уж как атаманушко-батюшко! Ужели дать неразумной животине голову мне сломать сдуру?

– Так вот: народ-конь, седок-боярин, аль выборный большой дворянин-жилец! За спиной боярина ездока седок! Шапка на седоке в жемчугах, видом шлык, на шлыке крест. А зовется тот седок царем.

– Вот ты куда меня завел, старого!

– Вышел я с народом платить лихом за лихо: по отце моем и брате панифиду править, и за всю голую Русь, витую, попранную в грязь воеводами… Пущай нынче боярство не отдает свои вольности, но и не то дорого! Пущай подумает: “ни век-де мне верховодить, когда так мою власть тряхнули” (4, s. 126).

A.Çapıgin tarixi faktlara hərdən müraciət etsə də, bu faktlara sərbəst yanaşır. müəllif baş qəhrəmanın həyatını və taleyini təsvir edərkən də bu yolla getmişdir. Müəllif, digər tarixi aspektdə yazan yazıçılar kimi, detal və faktları təsvir edərkən onu olduğu kimi, göstərməyə borclu olmur, bu fakt və hadisələrin dövrlə, epoxa ilə səsləşməsinə daha çox fikir verir. Məsələn, iyirmi yaşlı Stepan Razinin Solyan üsyanında iştirak etməsini də bu cür başa düşmək olar.

İyirmi yaşlı Razinin bu üsyanda iştirak etməsi mümkündürmü? Hər halda üsyanın olması faktdır. O zaman Razin nədən bu üsyanda iştirak etmiş olmasın? Yazıçı burada sərbəst hərəkət edir və çox doğru olaraq gənc Razinin bu üsyanda iştirak etməsini təsvir edir. Bu detal həm də yazıçıya ona görə lazım olmuşdur ki, bir xalq hərəkatının lideri kimi formalaşmasında bu hadisələrin əhəmiyyətini üzə çıxara bilsin, qəhrəmanın hələ gəncliyindən vətənini düşündüyünü təsdiq etsin.

A.Çapıgin Stepan Razin obrazını xalq içərisində təsvir etməklə yanaşı, onun bədii traktovkasına da fikir vermişdir. Belə ki, yazıçı bu obrazı yaradarkən romantikadan da istifadə etmiş, onun güclü, azadlıqsevər xarakterini romantik cizgilərlə göstərə bilmişdir. Onun azadlıqsevərliyi, humanizmi, insanlara münasibətində romantik yanaşmada özünü göstərir. Lakin yazıçı bunu onun təbiəti ilə bağlayır. Bəlkə də bu cür traktovka obrazın daşıdığı bədii ideya yükündən irəli gəlir. Belə ki, xalq kütlələrini irəli aparacaq qəhrəman ancaq bu yolla, romantik ideya və hərəkətlərlə öz ardınca apara bilərdi. Lakin Stepan Razinin cəmiyyətdəki sosial ədalət axtarışları həmişə realizmə əsaslanırdı. Əsərin sonunda qəhrəmanın faciəli ölümü onun ideya uğrunda qurban getməsini əsaslandırırdı. Yazıçı bununla demək istəyir ki, qəhrəman xalq üçün doğulmuş, onun uğrunda mübarizə aparmış və qəhrəmanlıqla həlak olmuşdur. Razinin xarakterinin bu cür verilməsi və onun taleyinin faciəli bitməsini tədqiqatçı S.Petrov "Çapıginskiy Razin" adlandırır (2, s. 350). Razin mahiyyət etibarilə mənsub olduğu doğma xalqı ilə birlikdədir, xalqın xoşbəxtliyi onun xoşbəxtliyidir. Tədqiqatçı Stepan Razinin romantik xarakterini belə əsaslandırır: "İlk baxışda romantik intriqa, məhəbbət hadisələri romanda əhəmiyyətli rol oynayır... Romantik planın romanda İrina obrazında və onun Razinə sərhədsiz məhəbbətində əhəmiyyətli rolu vardır" (2, s. 45).

Çapıginin həyatı və yaradıcılığı ilə bağlı həm ədəbi tənqid, həm də ədəbiyyatşünaslıqda müəyyən araşdırmalar aparılmışdır. Bunlardan biri B.Valbenin "Aleksey Pavloviç Çapıgin" kitabıdır (5). B.Valbenin monoqrafiyası daha məzmunlu təsir bağışlamaqla yanaşı, yazıçının yaradıcılığını əhatə edən ilk monoqrafiya kimi də diqqəti çəkir. Buna baxmayaraq, qeyd olunmalıdır ki, bu kitabda Çapıginin bədii ustalığı məsələlərinə yetərli diqqət ayrılmamışdır. Bu da ondan irəli gəlmişdir ki, müəllif yazıçının yaradıcılığını daha çox ideoloji yöndən təhlil etdiyindən tədqiqat əsəri, necə deyərlər, "sosiallaşdırılmışdır". Tədqiqatda Çapıgin yaradıcılığının qiyməti bir qədər də şişirdilmişdir. Müəllif Çapıginin, əsasən, roman yaradıcılığını təhlilə cəlb edir, erkən hekayə və povestlərində naturalist və simvolist məqamlara nəzər yetirmir. Kitabın quruluş metodikasında da bir sıra qüsurlar vardır. Tarixi roman probleminin görkəmli tədqiqatçılarından biri Y.Andreyevin fikrincə, B. Valbenin tədqiqat işi bu günün prizmasından da yaxşı əsər hesab olunur, ancaq bu təsdiq onun bütün tələblərə cavab verməsi anlamına gəlmir (1, s. 42). Tədqiqatçı burada B.Valbenin araşdırmasının daha çox ideoloji meyillərindən narazı qalır. Belə ki, tədqiqatçı bu əsərin təhlilində bədii dəyərdən daha çox inqilabi nöqteyi-nəzər önə çəkilir. Bu da təbiidir, tədqiqat işinin sosialist realizminin ən qızğın çağında yazıldığını nəzərə almış olsaq, məsələ aydın olar.

Tənqidi ədəbiyyatda artıq belə bir fikir, tezis formalaşmışdır ki, bu əsər Stepan Razinin xalq mənafeləri uğrunda, vəhşi boyarlar tərəfindən törədilən haqsızlıqlara qarşı mübariz kimi təsvir edildiyi ilk romandır. İnqilabaqədərki dövrdə yazılmış bir çox romanlarda Razin qəddar, nacins, yırtıcı qaniçən kimi təsvir olunur (D. Mordovsev, İ. Alekseyev və başqaları). Bir sıra romanların adları onların ideya istiqamətlərini qabarıq şəkildə əks etdirir – "Qanlı ziyafət" ("Krovavıy pir"), "Kimin günahlarına görə?" ("Za çyi qrexi?") və s. Xatırlamaq maraqlı olardı ki, elə həmin sözügedən dövr sovet ədəbiyyatında V. Stavskinin "Qaçış" ("Razbeq") və "Stanitsa" ("Stanitsa"), P. Zamoyskinin "Keçə çəkmələr" ("Lapti"), F. Panfyorovun

"Tirlər" ("Bruski"), M. Şoloxovun "Dirçəlmiş xam torpaq" ("Podnyataya selina") kimi görkəmlə əsərləri ilə ifadə olunurdu. Bu əsərlərdə kəndlilərin müasir həyatı, kənddə baş verən proseslər haqqında söhbət açılırdı.

Bu əsərlərə sirayət edən qoruma tendensiyası müəllifləri bütün sosial motivləri çıxarmağa, istismar edilən xalqın mübarizəsini soyğunçuluq, quldurluq kimi qələmə verməyə, dəhşətlər haqqında hekayətləri cavan xanımların (boyar qız və gəlinlərinin) və taxt-tacın şanlı və rəşadətli müdafiəçilərinin sentimental təsvirləri ilə qarışdırmağa məcbur edirdi.

A.Çapıgin "Stepan Razin" romanında bu ənənədən imtina etdi. Xalqa və istismarçılara münasibətin qəti şəkildə dəyişməsi nəticəsində hadisələrin qiymətləndirilməsi də dəyişdi. Tarixi əsərlərdə bəzən hadisələrin xronoloji ardıcıllığı əsas şərtlərdən biri olsa da, bəzən yazıçı bədii təxəyyülün gücü ilə yeni bədii konsepsiya irəli sürə bilir. Burada yazıçı daha çox sərbəstliyə yol verir. Tarixi romanlar müəllifi A.Çakovski belə bir fikrində haqlıdır ki: "Yazıçı faktları seçərkən birincisi, tarixi qanunauyğunluq anlayışından çıxış etməli, ikincisi sənətkar fantaziyası ilə yaradılmış hər şey tarixi həqiqətin əsas mahiyyətini təhrif etməməlidir" (6, s. 351). Bu mənada A.Çapıginin "Stepan Razin" romanında, demək olar, bu qanunauyğunluq gözlənilir. Yazıçı prinsipial tarixi təhriflərə yol verməmişdir. Yalnız mühüm əhəmiyyət kəsb etməyən bəzi məqamlarda müstəqil hərəkət edərək bədii təxəyyüllə tarixi gerçəkliyin sintezini yarada bilmişdir.

"Stepan Razin" kütləvi kəndli hərəkatının materialı əsasında yaradılmış ilk tarixi-inqilabi roman idi. Onun ardınca 20-ci illərin sonu-30-cu illərin əvvəllərində Puqaçov, Razin, Bolotnikov haqqında bir çox roman və povestlər meydana çıxdı. Eyni zamanda, dekabristlər haqqında da romanlar yazıldı, həm də müəlliflər zadəgan qəsdinin tarixini geniş xalq kütlələrinin vəziyyəti ilə əlaqələndirməyə çalışırdılar. Beləliklə, ölkənin inqilabi tarixinin və xüsusilə, istismara məruz qalan kəndlilərin mübarizəsinin təsvir olunması 20-30-cu illər hüdudlarının tarixi romanlarında mərkəzi yerlərdən birini tutdu.

A.Çapıginın bu romanı tarixi roman ənənəsinə müəyyən bir yenilik gətirmişdir. Bu yenilik əsərin süjetini və hadisələri bir şəxsin ətrafında deyil, hadisələrin ətrafında qurmağı lazım bilmişdir. Razin isə bu hərəkatın önündə gedən bir rəhbər kimi göstərilir. Lakin yazıçı dövrün ideologiyasına uyğun olaraq bir qədər burada ifrata varmışdır. Çünki romanda qəhrəmanın şəxsi həyatına çox az yer vermişdir. Biz onun şəxsi həyatını yalnız bəzi epizodlarda öyrənirik. Romanın başqa bir qüsuru isə dövrün ideoloji meyillərindən yan keçə bilməməsidir. Müasir dövrün aktual problemləri ilə sıx bağlı olan sovet tarixi romanı ölkə həyatında baş verən möhtəşəm dəyişikliklərlə özünün spesifik vasitələri ilə səsləşirdi. Ən əsas məsələni-kəndlilərin sovet hakimiyyəti tərəfinə kütləvi dönüşünün səbəblərini tarixi romanların müəllifləri imkanları daxilində göstərirdilər-onlar keçmişdə kəndlilərin ağır vəziyyətini və xalqın daha yaxşı həyat uğrunda daim mübarizə etmək cəhdlərini təsvir edirdilər.

**Məqalənin aktuallığı.** İnsanların azad yaşamaq və öz hüquqlarını müdafiə etmək probleminin bütün dövrlər üçün xarakterik olduğunu və məqalənin də məhz bu mövzuya həsr edildiyini nəzərə alsaq, onu aktual saya bilərik.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə A.Çapıginin "Stepan Razin" romanında tarixi gerçəkliyin təsviri ilə yanaşı, həmin dövrdə insanların məişət şəraiti, azad yaşamaq uğrunda apardıqları mübarizə geniş təhlil edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Андреев Ю.А. Русский советский исторический роман. М.: Издательство Академии Наук СССР, 1962.
2. Петров С.М. Русский советский исторический роман. М.: Современник, 1980.
3. А.П.Чапыгин. Путь писателя. "Ленинградская правда", 1935, 17 марта
4. Чапыгин А.П. Собрание сочинение. В 5 т., т. 2, Москва, 1967.
5. Б.Валбе. Алекскй Павлович Чапыгин. Изд. 2-й.Советский писатель, Л., 1959.
6. Чаковский А.В. Проблемы художественные изобрежения революции в литературе. Москва: Советский писатель, 1978, с. 341-354


**П.А. Мустафаева**

## Описание исторической действительности в романе А. Чапыгина "Степан Разин"

### Резюме

В статье рассматривается развитие исторических романов в 20-30-е годы XX века, исследуется проблема действительности в историческом романе А. Чапыгина «Степан Разин». Отмечается, что эти годы стали новым этапом в развитии русского исторического романа. К тому времени было написано лишь несколько исторических романов, а уже после в русской литературе будет написано более десятка исторических романов, Роман А. Чапыгина внес в традицию исторического романа определенное новшество. Это нововведение заставило выстраивать сюжет и события работы вокруг событий, а не вокруг одного человека. Разина изображают лидером движения. Тесно связанный с актуальными проблемами современности, советский исторический роман перекликался с великими переменами в жизни страны с ее специфическими средствами. Авторы исторических романов постарались показать главный вопрос - причины массового восстание крестьян Советской власти. В статье также рассматриваются исследования российских критиков и литературоведов.

**P.A. Mustafayeva**

## Description of historical reality in A. Chapigin's novel "Stepan Razin"

### Summary

The article reviews the development of historical novels in the 20-30s of the XX century and examines the problem of reality in the historical novel "Stepan Razin" by A. Chapygin. It is noted that these years were a new stage in the development of the Russian historical novel. So far, more than a dozen historical novels have been written in Russian literature, of which only a few are historical. This novel by A. Chapygin brought a certain innovation to the

tradition of the historical novel. This innovation made it necessary to build the plot and events of the work around events, not around one person. Razin is described as a leader in the movement. Closely related to the current problems of modern times, the Soviet historical novel resonated with the great changes in the life of the country with its specific means. The authors of historical novels tried to show the main question - the reasons for the mass uprising of the peasants of the Soviet regime. The article also reviews the research of Russian critics and literary critics.

**Redaksiyaya daxil olub:** 30.10.2021